## Cari ilin doqquz ayının yekunları

# Ağdaş: sosial-iqtisadi uğurlar dövlət qayğısının bəhrəsidir

2015-ci ilin doqquz ayında iqtisadi siyasətin əsas istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur.

Bu ilin oktyabr ayının 12-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə sosial-iqtisadi sahədə qarşıya qoyulmuş proqram və məqsədlərə uğurla nail olunduğu, Azərbaycanın sosial-iqtisadi inkişafının dinamik şəkildə davam etdiyi bir daha qeyd olunmuşdur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin iclasda dediyi kimi: "Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq". İqtisadi islahatlar nəticəsində artıq böyük işlər görülmüş, bu nailiyyətləri beynəlxalq qurumlar da qeyd etmiş və Davos Dünya İqtisadi Forumu Azərbaycanı yenə də çox yüksək pilləyə layiq görmüşdür.



Müşavirədə ölkə başçısı respublikada sosial-iqtisadi inkişaf sahəsində görülmüş işləri qeyd etməklə yanaşı, bu inkişafa mane olan bir sıra məqamlara da toxunmuş və qeyd etmişdir ki, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalı, onlardan heç bir haqq tələb edilməməlidir. Belə olan halda bizim büdcəmiz daha da böyüyərək, qeyri-neft sektorunun hesabına təmin ediləcəkdir. Korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizənin aparılması və sistem xarakterli tədbirlər görülməsi, ictimai nəzarətin gücləndirilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrilməlidir. Qeyd olunmuşdur ki, icra və hüquq mühafizə orqanları bəzi hallarda sahibkarlara problemlər yaradır, bəzi hallarda onlardan pul tələb edirlər. Sahibkar heç kimə borclu deyil, ancaq dövlətin vergisini verməlidir deyən dövlət başçısı bu sahələr üzrə konkret tapşırıqlar vermişdir.

Bütün bunlar isə deməyə əsas verir ki, Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla yürütdüyü iqtisadi siyasət qarşıdakı illərdə də müsbət nəticələrini verəcəkdir.

Cari ilin doqquz ayında ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağdaş rayonunda da sosial-iqtisadi inkişafa nail olunması sahəsində mühüm tədbirlər görülmüşdür. Bu günlərdə rayon icra hakimiyyəti başçısı yanında Şurada ötən dövr ərzində görülmüş işlərə yekun vurulmuş və ilin qalan dövrü ərzində qarşıdakı vəzifələr müəyyənləşdirilmişdir.

**Hesabat məruzəsi ilə çıxış edən Ağdaş Rayon icra hakimiyyətinin başçısı Tofiq İbrahimov cari ilin doqquz ayında rayonda görülmüş genişmiqyaslı işlərdən söhbət açdı.**

Natiq qeyd etdi ki, hesabat dövründə Ağdaş şəhərinin müxtəlif küçələrinə 23 min kvadratmetr asfalt vurulmuş, Heydər parkında aparılan yenidənqurma işləri başa çatmış, Ağdaş şəhəri ərazisində və magistral yolların kənarlarında 55 min müxtəlif ağac əkilmiş, rayonun Aralbir kəndində 220 şagird yerlik məktəb binası tikilərək istifadəyə verilmişdir. Tofiqi kəndində 220 şagird yerlik, Qarağan-Şıxlar və Qülbəndə kəndlərinin hər birində 180 şagird yerlik və Ərəbşəki kəndində isə 80 şagird yerlik məktəb binalarının tikintisi davam etmişdir. Ağdaş şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması sahəsində ardıcıl işlər görülmüş, ilin əvvəlindən 126.9 min poqonmetr uzunluğunda su xətti, 143 min poqonmetr uzunluğunda kanalizasiya xətti çəkilmiş, 4500 abonentə sayğac quraşdırılmış və 2300 abonentə su verilmişdir.

Rayonda əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təminatını yaxşılaşdırmaq məqsədilə hesabat dövrü ərzində də təmir işləri davam etdirilmiş, 32.0 kilometr uzunluğunda müxtəlif gərginlikli elektrik xətləri və 52 ədəd 10/04 kilovoltluq transformator yarımstansiyaları əsaslı və cari təmir olunmuş, 10 ədəd yeni transformator məntəqəsi yaradılaraq istifadəyə verilmişdir.

Hesabat dövründə rayonun 11 yaşayış məntəqəsinin qazlaşdırılması işlərinə başlanılmış və Türyançay qəsəbəsi, Aşağı Ağcayazı, Yuxarı Ağcayazı, Korarx və Cüvə kəndlərində qazlaşma işləri başa çatdırılmışdır. Hazırda digər 6 kənd yaşayış məntəqələrində işlər davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi ilə əlaqədar rayonda ilin əvvəlindən aqrar sektorun inkişafı sahəsində də müəyyən işlər görülmüşdür.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı sahəsində aqrar sektorun inkişafının xüsusi əhəmiyyəti vardır. Rayonda əkilmiş 10378 hektar taxıl sahəsindən 31511 ton taxıl istehsal olunmuşdur. Hesabat dövründə 2361 hektar tərəvəz sahəsinə aqrotexniki qulluq göstərilmiş və 36581 ton tərəvəz istehsal olunmuşdur. İlin əvvəlindən 460 hektar dən qarğıdalı sahəsindən 3073 ton qarğıdalı, 670 hektar kartof sahəsindən 9996 ton kartof, 665 hektar bostan sahəsindən 10308 ton bostan məhsulu götürülmüşdür. Bitkiçilik məhsulları istehsalının artırılması üçün aqrar sektorda çalışanlara güzəştli qiymətlərlə 300 ton gübrə satılmışdır.

Rayonda mal-qara arasında süni mayalandırma işinin təşkili və onun genişləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür. Ötən 9 ay ərzində 2069 baş heyvan süni yolla mayalanmış və süni yolla mayalanmış heyvanlardan 1155 baş bala alınmışdır. Bu dövrdə keçən ilin eyni dövrünə nisbətən iribuynuzlu malqaranın sayı 282 baş, xırdabuynuzlu mal-qaranın sayı 278 baş artmış, rayonda diri çəkidə ət istehsalı 57.6 ton, süd istehsalı 890.4 ton, yumurta istehsalı 87 min ədəd, yun istehsalı isə 3.2 ton çoxalmışdır.

Hesabat dövründə rayon ərazisində 1000 hektar sahədə biyan yetişdirilməsinə və biyan istehsalı müəssisəsinin yaradılmasına başlanılmış və ilin əvvəlindən 210 hektar sahədə biyan əkilmişdir. Hesabat dövründə "Aqrotexservis"in Ağdaş filialına 10 ədəd müxtəlif markalı taxılbiçən kombayn alınmışdır.

Ötən doqquz ay ərzində həyata keçirilmiş tədbirlər nəticəsində rayonda keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul istehsalı 2,3 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 8,6 faiz, sənaye məhsulu istehsalı 1,1 faiz artmışdır. Bu dövrdə rayonda 33 milyon 621 min manatlıq tikinti-quraşdırma işləri görülmüş, bütün maliyyə mənbələri hesabına əsas kapitala 35 milyon 710 min manat həcmində investisiya qoyulmuşdur. 2015-ci ilin 9 ayında rayonda 842-si daimi olmaqla 1762 yeni iş yeri yaradılmışdır.

2015-ci il üçün rayon büdcəsi 21 milyon 796 min manat, 2014-cü il rayon büdcəsindən 125 min manat çox təsdiq edilmişdir. 2015-ci ilin doqquz ayında rayon büdcəsinin mədaxil hissəsi 14 milyon 369 min manat icra olunmuş, bu dövrdə respublika büdcəsindən 11 milyon 250 min manat həcmində dotasiya alınmışdır.

İlin əvvəlindən rayonda 1766 ailənin 8 min 251 üzvünə 2 milyon 540 min manat ünvanlı dövlət sosial yardımı verilmişdir. Hazırda Ağdaş Əhalinin Sosial Müdafiəsi Mərkəzinin sosial məişət xidməti sektoru tərəfindən rayonda 189 nəfər tək-tənha ahıl və əlillərə evdə sosial-məişət xidməti göstərilir. Hesabat dövründə rayonda 19 şəhid və Qarabağ əlilləri üçün fərdi mənzil tikintisinə başlanılmış, hazırda tikinti işləri davam edir.

"Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən əmək pensiyasının sığorta hissəsi olan 12670 nəfərin pensiyasının sığorta hissəsində indeksləşmə aparılmış, hər ay üçün əlavə hesablanmış 8 min 503 manat vəsaitin ödənilməsi təmin edilmişdir. Rayon üzrə pensiya və müavinətlər üçün bu dövrdə 21 milyon 636 min manat vəsait ödənilmişdir.

Rayonda əhalinin məşğulluğuna köməklik göstərilməsi, işaxtaran və işsiz vətəndaşların işlə təmin olunması üçün 29 sentyabr 2015-ci il tarixdə Əmək Yarmarkası keçirilmişdir. Əmək Yarmarkasında 186 boş iş yeri üzrə işaxtaran və işsiz vətəndaşlara iş təklif olunmuşdur. Təqdim olunmuş boş iş yerləri hesabına 83 nəfər iş axtaran vətəndaşa müvafiq iş yerləri üzrə göndərişlər verilmişdir. Bu ilin sentyabr ayının 11-dən 25-nədək rayonda "Səyyar ASAN xidmət" tərəfindən 2312 vətəndaşa xidmət göstərilmiş və bu dövrdə 1486 nəfər şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, 409 nəfər ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, 213 nəfər sürücülük vəsiqələrinin dəyişdirilməsi, 195 nəfər isə notariat, pensiya, əmlak üzrə xidmətlərindən istifadə etmişdir.



Natiq daha sonra vurğulamışdır ki, hazırda rayon ərazisində bir sıra həlli vacib problemlər qalmaqdadır. Bunların da vaxtında və yüksək səviyyədə həll olunması mühüm əhəmiyyət kəsb edir. Ağdaş şəhərinin küçələrinin asfaltlaşdırılmasının davam etdirilməsi, mərkəzi küçələrin işıqlandırma sisteminin bərpa olunması, kəndlərarası yolların asfaltlaşdırılması, Ağdaş şəhərinin qaz istismar şəbəkəsinin yenidən qurulması, təbii qazla təmin olunmayan kənd yaşayış məntəqələrinin qazlaşdırılması, istismar müddəti başa çatmış elektrik dirəklərinin dəyişdirilməsi, elektrik xətlərinin SİP-kabellərlə əvəz olunması, əhalinin içməli suya tələbatının ödənilməsi məqsədilə qəsəbə və kəndlərdə artezian su quyularının qazılması və içməli su mənbəyi kimi suvarma arxlarından istifadə olunan kəndlərdə sutəmizləyici qurğuların quraşdırılması, əhalinin məşğulluğunun artırılması, yeni iş yerlərinin yaradılması və başqa problemlərin aradan qaldırılması məqsədilə ardıcıl və sistemli iş aparılır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu sosial-iqtisadi islahatlar qarşıdakı dövrdə nailiyyətlərimizin daha da artmasını, ölkəmizin dünyada mövqeyinin möhkəmlənməsini və xalqımızın sosial-iqtisadi vəziyyətinin davamlı olaraq yaxşılaşmasını təmin edəcək, müsbət nəticələr və inkişaf sayəsində müəyyən edilmiş hədəflərə nail olunacaqdır.

Rayonun sosial-iqtisadi inkişafında əldə olunmuş nailiyyətlərin davam etdirilməsi istiqamətində ölkə başçısı tərəfindən verilmiş tapşırıqların vaxtında və layiqincə yerinə yetirilməsi üçün bütün imkanlar səfərbər ediləcəkdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**